**Azərbaycan Respublikasında Dövlət Avtomatlaşdırılmış "Seçkilər" İnformasiya Sisteminin yaradılması haqqında**

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikasında seçki sisteminin təkmilləşdirilməsi, onun informasiya təminatının müasir tələblər səviyyəsində qurulması və seçki prosesində aşkarlığın və şəffaflığın təmin olunması məqsədi ilə qərara alıram:

1. Azərbaycan Respublikasında Dövlət Avtomatlaşdırılmış "Seçkilər" İnformasiya Sistemi yaradılsın.

2. Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına təklif edilsin ki, bir ay müddətində:

Sistemin fəaliyyətini təşkil etmək üçün öz nəzdində İnformasiya Mərkəzi yaratsın;[1]

Sistemə aid tələbləri və ondan istifadə qaydalarını müəyyən etsin;

Sistemin daxilində informasiya mübadiləsi və mühafizəsini təmin etmək üçün müvafiq icra hakimiyyəti orqanları ilə birgə zəruri tədbirlər hazırlayıb həyata keçirsin.

3. Müvafiq şəhər və rayon icra hakimiyyəti başçılarına tapşırılsın ki, bir ay müddətində hər dairə seçki komissiyasına Dövlət Avtomatlaşdırılmış "Seçkilər" İnformasiya Sisteminin proqram-texniki komplekslərinin yerləşdirilməsi üçün zəruri olan xidməti sahələri ayırsınlar.

4. Azərbaycan Respublikasının Nazirlər Kabinetinə tapşırılsın ki, on beş gün müddətində Dövlət Avtomatlaşdırılmış "Seçkilər" İnformasiya Sisteminin fəaliyyətini təşkil etmək üçün lazımi maliyyə vəsaitinin ayrılmasını təmin etsin.

5. Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

**Azərbaycan Respublikasının Prezidenti Heydər ƏLİYEV**

**Bakı şəhəri, 3 sentyabr 2000-ci il**

**№ 528**

**Azərbaycan Respublikasının Qanunvericilik toplusu.- 2000.- 30 sentyabr, № 9.- S. 4009-4010.**